

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 122 (23.033)

*4 iyul 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Günnüt kəndində etibarlı müdafiə sistemi yaradılıb



Naxçıvan Muxtar Respublikasında ordu, birləşmə və hissələr üçün nümunəvi xidmət şəraiti yaradılmışdır. Güclü maddi-texniki təminat, yüksək xidmət şəraiti və xalq-ordu birliyi hərbi qulluqçuların döyüş əzmini daha da artırır. Ordumuz tərəfindən nəzarət altına götürülən Günnüt kəndində də etibarlı müdafiə sistemi qurulmuşdur.

İyulun 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Günnüt kəndindəki hərbi hissədə olmuş, burada xidmət keçən əsgər və zabitlərlə görüşmüşdür.

Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əsgərləri salamlamış, Azərbaycan Xalq Cümhuriyyəti və Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə şəxsi heyəti təbrik edərək demişdir: Ulu öndər Heydər Əliyev deyirdi: ***“Hər bir dövlət öz dövlətçiliyini qüdrətli etmək istəyirsə, onun güclü ordusu olmalıdır”.*** Ümummilli liderimizin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi tədbirlər bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan inkişaf etdikcə, ordumuzun da qüdrəti artır. Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilən hərbi parad da ordumuzun gücünün və qüdrətinin daha bir nümayişi oldu.





Ali Məclisin Sədri demişdir: Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da ardıcıl və sistemli şəkildə icra olunmaqdadır. Əlahiddə Ümumqoşun Ordu və Silahlı Qüvvələrimizin muxtar respublika ərazisindəki birləşmə və hissələri böyük təşkilatlanma və inkişaf yolu keçmiş, şəxsi heyət peşəkarlığını artırmışdır. Keçirilən hərbi əməliyyatlar onu deməyə əsas verir ki, muxtar respublikada torpaqlarımızı etibarlı müdafiə edən və hər an işğal altındakı torpaqlarımızı azad etməyə qadir olan güclü ordu formalaşıb. Bu yaxınlarda Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur”.***



Ali Məclisin Sədri bu əməliyyatların həyata keçirilməsində iştirak edən hərbi hissələrin şəxsi heyətinə təşəkkür etmiş, onlara xidməti fəaliyyətlərində uğurlar arzulamışdır.

Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək demişdir: Şərur rayonunun mühüm strateji əhəmiyyətə malik olan Günnüt kəndi 1992-ci ildə işğal edilmişdi. Lakin Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilər işğaldan azad olunmuşdur. Şəxsi heyət əməliyyatlar keçirilən zaman rəşadət göstərərək böyük bir ərazini nəzarətə götürmüşdür. Qazanılan uğur Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən “Uğurlu Naxçıvan əməliyyatı” adlandırılmış, bu əməliyyatda xidməti olanlar təltif olunmuş və onların göstərdikləri qəhrəmanlıqlar yüksək qiymətləndirilmişdir. Kərəm Mustafayev təltif olunan, mükafat alan, əməyi dəyərləndirilən hər bir şəxs adından Ali Baş Komandana və Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, bundan sonra da qarşıya qoyulacaq hər bir tapşırığı uğurla yerinə yetirəcəklərini bildirmişdir.

Zabit Rəşad Əliyev və gizir Hüseyn Vəliyev minnətdarlıq edərək demişlər: Uzun illərdir işğal altında olan Günnüt kəndinin nəzarətə götürülməsi bizim döyüş ruhumuzu daha da artırıb. Biz fəxr edirik ki, bu əməliyyatda iştirak etmişik. Düşmənin yaşayış məntəqələri və mühüm strateji yolları nəzarətimiz altındadır.





*Ardı 2-ci səhifədə*





Şəxsi heyət istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Biz bu zəfəri Şuşada, Laçında, Kəlbəcərdə və digər işğal altında olan torpaqlarımızda da qeyd edəcəyik.

Əsgər Rasim Əhmədəliyev çıxış edərək demişdir: Günnüt əməliyyatının uğurla başa çatdırılması ordumuzun qüdrətinin və peşəkarlığının nəticəsidir. Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilən hərbi paradda Ali Baş Komandan tərəfindən Günnüt əməliyyatının yüksək qiymətləndirilməsi bizim qələbə əzmimizi artırıb. Döyüş mövqelərində xidmətin nümunəvi təşkili üçün yaradılan şərait göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Şüarımız və amalımız birdir: “Hamı bir nəfər üçün, bir nəfər hamı üçün”.

Ali Məclisin Sədri Günnüt əməliyyatında iştirak edən əsgər və zabitlərə hədiyyələr təqdim etmişdir.

Sonra Ali Məclisin Sədri Günnüt kəndində və ətraf ərazilərdə yerləşən postlarda olmuş, əsgər və zabitlərlə görüşmüş, xidmətin təşkili ilə maraqlanmışdır.

Ali Məclisin Sədri hərbi əməliyyatların uğurla başa çatması münasibətilə şəxsi heyətə təşəkkürünü bildirərək demişdir: Azərbaycan ordusunun uzun illərdən sonra tarixi torpaqlarımıza nəzarət etməsi mühüm nailiyyətdir. Bu, həm torpaqlarımızın işğaldan azad olunması, həm də kənd təsərrüfatı üçün yararlı torpaqlardan istifadə etməyə imkan yaranması deməkdir. Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, ordu quruculuğu sahəsində görülən işlər torpaqlarımızın işğaldan azad olunmasına yönəldilmişdir. Azərbaycan dövləti torpaqlarımızın sülh yolu ilə azad olunmasının tərəfdarıdır. Lakin aprel döyüşləri bir daha təsdiq etdi ki, Azərbaycan həm sülh, həm də müharibə yolu ilə torpaqlarını azad etməyə qadirdir. Aprel döyüşləri Azərbaycan ordusunun hərbi qüdrətini göstərdisə, Naxçıvan əməliyyatı Azərbaycan ordusunun nə qədər böyük manevr qabiliyyətinə malik olduğunu təsdiq etdi.

Ali Məclisin Sədri əsgər və zabitlərə hədiyyələr təqdim etmişdir.

Sonra ön xətdə yerləşən digər postlarda şəxsi heyətlə görüşən Ali Məclisin Sədri göstərdikləri şücaətə görə əsgər və zabitləri təbrik etmiş, onlara təşəkkürünü bildirmişdir.

Zabit Rəşad Məmmədov minnətdarlıq edərək demişdir: Naxçıvan əməliyyatında şanlı Azərbaycan əsgəri düşmənə layiqli cavab verdi. Əməliyyatın çətinliklərinə baxmayaraq hər bir hərbi qulluqçu dövlətin və xalqın dəstəyini öz üzərində hiss edərək qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdi. Fəxr edirik ki, bu torpaqların azad olunmasında iştirak etdik. Söz veririk ki, torpaqlarımızı bundan sonra da şərəflə qoruyacağıq. Bu əməliyyat bir daha düşmənə



göstərdi ki, onun istənilən təxribatının qarşısı Azərbaycan ordusu tərəfindən qətiyyətlə alınacaqdır. Şəxsi heyətimiz hər cür qayğı ilə əhatə olunub. Bu yaxınlarda hərbi qulluqçularımızın təltif olunması və onlara rütbələrin verilməsi bizi daha da ruhlandırdı. Növbəti döyüş əmri uğrunda əsgəri şücaətimizi göstərməyə hər an hazırıq.

Sonra Ali Məclisin Sədri işğaldan azad edilən Günnüt kəndində olmuş, ərazidə müdafiənin təşkili və mövqelərin möhkəmləndirilməsi barədə tapşırıqlar vermişdir.

Ali Məclisin Sədri dayaq məntəqələrində xidmət aparan hərbi qulluqçularla görüşmüş, onları təbrik edərək demişdir: Vaxtilə bu ərazilər ermənilər tərəfindən işğal olunmuş, Günnüt kəndində yaşayış yerləri dağıdılmışdır. Lakin uğurlu əməliyyatlardan sonra 10 min hektardan artıq əkinəyararlı torpaqlar nəzarət altına keçmişdir. Bu, Azərbaycan ordusunun gücünün və şəxsi heyət arasındakı ruh yüksəkliyinin göstəricisidir. O ordu güclü deyil ki, onun çoxlu silah-sursatı vardır. O ordu güclüdür ki, onun əsgərlərinin döyüş ruhu yüksəkdir. Keçirilən əməliyyatlar Azərbaycan ordusunun döyüş ruhunu göstərdi. İtki verilmədən torpaqlarımız geri alındı.

Daha sonra Ali Məclisin Sədri bölük mərkəzində şəxsi heyətlə görüşmüş, onlara hədiyyələr təqdim etmişdir.

Əsgər Turan Dövrüşov minnətdarlıq edərək demişdir ki, təlimlərdə qazandığımız təcrübə bizim qələbəmizin əsasını təşkil



edir. Şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. Daim üzərimizdə qayğı hiss edirik. Bu dağlıq şəraitdə xidmətin təşkili üçün lazımi şərait yaradılıb. Qarşımızda bir müqəddəs vəzifə dayanır. O da torpaqlarımızı qorumaqdan və verilən tapşırıqları uğurla icra etməkdən ibarətdir.

Məlumat verilmişdir ki, ön xətdə şəxsi heyət üçün lazımi şərait yaradılır. Postlarda və bölük mərkəzlərində yeni yataqxana və xidmət binaları inşa olunur. Eyni zamanda ərazidə yeni yollar çəkilir, postlar arasında rahat əlaqə təmin edilir.

Ali Məclisin Sədri tikinti işlərini həyata keçirən heyətlə görüşmüş, çətin dağlıq şəraitdə xidmətin nümunəvi təşkili üçün yaratdıqları şəraitə görə onlara təşəkkür etmişdir.

Ali Məclisin Sədri Qızılqaya yüksəkliyində və müşahidə məntəqəsində olmuş, mövqelərimizin vəziyyəti ilə tanış olmuşdur.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə müdafiənin ön xəttində xidmətin təşkili haqqında məlumat vermişdir.

Qeyd olunmuşdur ki, Əlahiddə Ümumqoşun Ordu müdafiə zolağının Validağ, Kömürlüdağ istiqamətində Axsal dağı, Qızılqaya dağı, Yağargədik dağı, Bağırsaq dağı və Həsənqulubağ sahəsində ön xəttin dövlət sərhədi boyu əlverişli mövqeləri ələ keçirib. 26 kilometr məsafəni əhatə edən əməliyyat nəticəsində 7 kilometrədək dərinlikdə əlverişli yüksəkliklər ələ keçirilmişdir. Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verməsidir. Ərazinin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi və təminat-təxliyyə məqsədi ilə 50 kilometr yeni yol çəkilmiş, 60 kilometrdən artıq yararsız yollar isə bərpa edilmişdir. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün ətrafdakı hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub. Müdafiə rayonunun qorunmasının təşkili məqsədilə ərazidə qısa müddətdə mühəndis-istehkam tədbirləri görülmüş, postlar arasında dayanıqlı rabitə əlaqəsi yaradılmış, yeni səngərlər qazılmışdır. Ön xətdəki mövqelərlə yanaşı, dayaq məntəqələrində də etibarlı müdafiə sistemi yaradılmışdır.

Ali Məclisin Sədri müdafiənin təşkili sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsinin vacibliyini bildirmiş, müdafiə mövqelərinin möhkəmləndirilməsi barədə tapşırıqlar vermişdir.

Gətirilmiş müxtəlif ərzaq məhsulları hərbi hissənin anbarına təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Günnüt kəndinin torpaqlarından səmərəli istifadə olunur



Günnüt kəndinin və ətraf ərazilərin ordumuzun nəzarəti altına keçməsi bu torpaqlardan səmərəli istifadə etməyə imkan yaratmışdır. Sərhəddə yerləşən bu yerlərin etibarlı müdafiəsi, zəngin bitki örtüyü arıçılıqla, maldarlıq və heyvandarlıqla məşğul olanlar üçün çox əlverişlidir. Artıq Şərur rayonunun Günnüt kəndinin ərazisində bu imkanlardan səmərəli istifadə edirlər.

İyulun 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Günnüt kəndindəki arıçılarla görüşmüşdür.

Ali Məclisin Sədri arıçıları salamlayaraq demişdir: Vaxtilə Günnüt öz balı ilə məşhur idi. Bu gün ərazidən istifadə etmək üçün lazımi şərait yaradılıb. Torpaqlarımız müdafiə olunur, yeni yol çəkilib. Bu torpaqlar kənd təsərrüfatı üçün yararlıdır. Arıçılar və təsərrüfatla məşğul olanlar bu imkanlardan lazımınca istifadə etməlidirlər.

Arıçı Rəcəb Nəcəfov minnətdarlıq edərək demişdir: Uzun müddət Günnüt kəndinin həsrətində idik. Bu ərazilərə 2 kilometr yaxınlaşa bilmirdik. Lakin bu gün 26 kilometr keçib öz torpağımızda – Günnüt kəndində təsərrüfatla məşğul oluruq. Dövlətimizə, ordumuza güvənirik. Azərbaycanla, onun qüdrətli ordusu ilə fəxr edirik.

Arıçılar Elyar Məmmədov və Fikrət Məmmədov da Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər.

Ali Məclisin Sədri Günnüt kəndində bundan sonra da təsərrüfat sahibləri üçün hərtərəfli şəraitin yaradılacağını bildirmiş, arıçılara təşəkkür etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*Muzeylər milli sərvətimizdir*

# Mübariz insanların həyat yolunu əks etdirən ünvan: *Şahtaxtinskilər Muzeyi*

***Muxtar respublikamızın tarixi və mədəniyyətinin inkişafında, ictimai fikir və düşüncənin tərəqqisində bir çox nəsillərin əvəzsiz rolu olub. Onlardan biri Kəngərli rayonunun Şaxtaxtı kəndində yaşamış və mühüm fəaliyyətləri ilə tarixdə iz qoymuş Şahtaxtinskilər nəslinin nümayəndələridir. Bu nəsil hər zaman bir amal, istək, məqsəd uğrunda – ölkəmizin nüfuzunun qorunması naminə şərəfli mübarizə aparıb, elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, dövlət quruculuğunun və hərb sənətinin inkişafında mühüm rol oynayıblar.***



Ölkəmizin milli mənafeyi naminə çalışan, ona mühüm xidmətlər göstərən belə görkəmli şəxsiyyətlər bu gün dövlətimiz tərəfindən ehtiramla yad olunur, onların xidmətləri yüksək qiymətləndirilir. Elə bunun bariz nümunəsidir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 9 fevral tarixli Sərəncamına əsasən ziyalılar yurdu Şahtaxtıda Şahtaxtinskilər Muzeyi yaradılıb. Yaxın günlərdə biz də adıçəkilən muzeyə üz tutduq, burada Şahtaxtinskilər nəslinin görkəmli nümayəndələrinin həyat və fəaliyyətini özündə əks etdirən eksponatlarla tanış olduq.

Muzey əməkdaşı Nərminə Əliyeva ətraflı məlumat verərək bildirdi ki, Şahtaxtinskilər nəsli ölkəmizə Azərbaycan elmi və ictimai-siyasi mühitində tanınmış dövlət xadimi və diplomat, beynəlxalq Moskva və Qars müqavilələrinin bağlanmasında müstəsna xidmətlər göstərmiş Behbud ağa Şahtaxtinski, görkəmli publisist və ictimai xadim Məhəmməd ağa Şahtaxtlı, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərindən biri, Azərbaycan Parlamentinin ilk üzvlərindən Həmid ağa Şahtaxtinski, görkəmli rəssam Elmira Şahtaxtinskaya kimi şəxsiyyətlər bəxş edib. Bu nəslin nümayəndələri hansı dövrdə yaşamalarından asılı olmayaraq, xalq üçün böyük fədakarlıqlar göstərib, Vətənə bağlı ömür yaşayıblar. Onların keçdikləri ömür yolu hər kəs üçün nümunədir.

Muzeydə olarkən ekspozisiya zalında nümayiş olunan eksponatlara nəzər saldıq. Zalın ilk guşəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şahtaxtinskilər Muzeyinin yaradılması haqqında" 9 fevral 2010-cu il tarixli Sərəncamı, Şahtaxtinskilər nəslinin görkəmli nümayəndələri haqqında məlumatlar yer alıb. Ekspozisiyanın ikinci guşəsi isə Şahtaxtinskilər nəslinin görkəmli nümayəndəsi Behbud ağa Şahtaxtinskiyə həsr olunub. Burada Behbud ağa Şahtaxtinskinin həyat yolunu əks etdirən məlumatlar və fotoşəkillər nümayiş etdirilir. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında" 2011-ci il 21 fevral tarixli Sərəncamına əsasən tanınmış ictimai-siyasi xadimin yubileyi qeyd olunub, onun adına poçt markaları və zərflər buraxılıb.

Görkəmli şəxsiyyətə həsr olunmuş "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar", "Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi" kitabları, o cümlədən Behbud ağa Şahtaxtinskiyə aid arxiv sənədləri, Naxçıvan şəhərindəki Behbud ağa Şahtaxtinski küçəsinin fotoşəkli, "Baraban" jurnalının 1912-ci ilə aid 1 və 2 nömrəli, həmçinin 1913-cü ilə aid 1 nömrəli buraxılışları muzeyin dəyərli eksponatları sırasındadır.

Növbəti guşə görkəmli publisist və ictimai xadim Məhəmməd ağa Şahtaxtlıya həsr olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli ictimai xadim, publisist və maarifçi Məhəmməd ağa Şahtaxtlının anadan olmasının 160 illiyinin qeyd olunması və xatirəsinin əbədiləşdirilməsi haqqında" 2006-cı il 27 fevral tarixli Sərəncamına əsasən görkəmli ictimai xadimin 160 illik yubileyi qeyd olunmuş, Naxçıvan şəhərindəki Kitab Evinə Məhəmməd ağa Şahtaxtlının adı verilmiş, seçilmiş əsərləri nəşr olunmuşdur. Məhəmməd



ağa Şahtaxtlıya həsr olunmuş vitrinlərdə "Şərqi-Rus" qəzetinin başlığının surəti, mətbəəni Mirzə Cəlilə bağışlaması haqqında ərizə və şəhadətnamənin surəti, Məhəmməd ağa Şahtaxtlının yeni əlifba layihəsinin, tərcümə etdiyi "Müsəlman aləmində günəş hesablanması", "Türkiyənin baş vəziri Kamil paşanın qeydləri" kitablarının surətləri, məqaləsinin çap olunduğu məcmuə, seçilmiş əsərləri və "Məhəmməd ağa Şahtaxtlı: taleyi və sənəti" kitabları, onun adını daşıyan Naxçıvan şəhərindəki Kitab Evinin fotoşəkli yer alır.

Növbəti guşə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərindən biri, parlamentin üzvü, görkəmli maarifçi Həmid ağa Xəlil oğlu Şahtaxtinskiyə həsr olunub. Bu guşədə Həmid ağa Şahtaxtinski haqqında məlumat, onun fotoşəkli və haqqında bəhs edən qəzet materialları nümayiş etdirilir.

Digər guşədə Azərbaycan Respublikasının Xalq rəssamı Elmira Həbibulla qızı Şahtaxtinskaya haqqında məlumat, onun fotoşəkli, albom-kataloqu və digər sənədlər mühafizə olunur. Rəssamın oğlu Altay Sadıxzadə tərəfindən çəkilmiş Elmira Şahtaxtinskayanın portreti və digər portretlər də muzeyin dəyərli eksponatları sırasındadır. Eyni zamanda burada Elmira Şahtaxtinskayanın "Sozopol" mənzərəsi və "Azərbaycan qədim mədəniyyət diyarıdır" plakat silsiləsinə aid əsərləri də nümayiş olunur.

Başqa bir guşə isə Aleksis (Ələsgər) Cahangir ağa oğlu Şahtaxtinski-



yə həsr olunub. 1967-ci ildə Strasburq şəhərində anadan olan Aleksis (Ələsgər) Cahangir ağa oğlu Şahtaxtinski 1993-cü ildən diplomat kimi fəaliyyətə başlayıb. Yuqoslaviya müharibəsi dövründə NATO-nun qurumlarında çalışan Aleksis, həm də Moskvada bu təşkilatın təmsilçisi olub. Rusiya Federasiyası ilə NATO arasında saziş bağlanandan sonra 1997-ci ildən 1999-cu ilədək məlumat bürosunun rəhbəri işləyib. Sonralar Brüsseldə NATO-nun Baş katibinin mətbuat katibi kimi fəaliyyət göstərib. Belarusda Fransa səfirliyində müşavir işləyən Aleksis bu illərdə həm də Diplomatiya Akademiyasını bitirib. 2007-ci ildən ATƏT-in Bakı ofisində fəaliyyət göstərib.

Aleksis Şahtaxtinski 1991-ci ildə Naxçıvana – Şahtaxtı kəndinə gələrək, 2010-cu ildə buradakı Şahtaxtinskilər Muzeyinin açılışında iştirak edib. Aleksis Şahtaxtinskiyə həsr olunmuş qəzet materialları, atası Cahangir ağa Şahtaxtinski və babası Məhəmməd ağa Şahtaxtlının fotoşəkilləri hazırda bu guşədə nümayiş olunmaqdadır.

Növbəti guşədə Şahtaxtı kəndinin görkəmli nümayəndələrindən olan İsa Sultan Şahtaxtinski, Toğrul Şahtaxtinski, Məhəmmədəmin Şahtaxtinski, Əbülfət ağa Şahtaxtinski, Adilə Şahtaxtinskaya, Zəhra Şahtaxtinskaya, Baxşəli ağa Şahtaxtinski, Həbibullah Şahtaxtinski, Ətaulla Şahtaxtinskinin fotoşəkilləri sərgilənir. Bir sözlə, Şahtaxtinskilər Muzeyi hazırda bu tanınmış nəslin nümayəndələri haqqında mühüm məlumatların mühafizə olunduğu və nümayiş etdirildiyi məkandır.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2017-ci ildə bu mədəniyyət müəssisəsi yenidən qurulmuş, burada fond otağı yaradılmış, ətrafda abadlıq işləri həyata keçirilmişdir. Hazırda muzey Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, dövlət quruculuğunun və hərb sənətinin inkişafında mühüm xidmətləri olan Şahtaxtinskilər nəslinin görkəmli nümayəndələrinin həyat və fəaliyyətinin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyətə malikdir.

**Gülcamal TAHİROVA**

# 135-ci teatr mövsümü başa çatıb

***İyulun 3-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovun Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanı əsasında səhnələşdirdiyi ikihissəli tarixi dramı ilə 135-ci teatr mövsümünü başa çatdırıb.***

Tamaşadan əvvəl muxtar respublikanın mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, bu qədim sənət məbədinin əsaslı inkişafı, yaradıcılıq axtarışlarının genişləndirilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin qayğısı nəticəsində teatrımız ötən əsrin 70-ci illərindən başlayaraq davamlı inkişaf yoluna çıxıb. Mədəniyyət tariximizin şərəfli səhifələrini yazan Naxçıvan teatrı dövlət müstəqilliyi qazanıldıqdan sonra da ulu öndərin diqqət və qayğısı ilə öz inkişafının yeni mərhələsinə qədəm qoyub.



Bildirilib ki, Azərbaycanda ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan teatrlara diqqət və qayğı bu gün uğurla davam etdirilir. Ölkə Prezidentinin 2008-ci il 31 yanvar tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi dövlət səviyyəsində qeyd olunub.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikasında teatrların fəaliyyətinə hərtərəfli qayğı göstərilir. Son illər muxtar respublikada teatr binalarının hamısı yenidən qurulub və ya əsaslı təmir olunaraq istifadəyə verilib.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı binasının 2012-ci il fevral ayının 3-də əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə olub.

Vurğulanıb ki, muxtar respublikada teatr sənətinə bağlı insanların əməyi də daim dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Yaradıcı insanlar fəxri adlara, orden və medallara, Prezident təqaüdü və mükafatlarına layiq görülürlər.

Natəvan Qədimova bütün mədəniyyət və incəsənət işçiləri adından göstərilən böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra "Qılınc və qələm" tamaşasına baxılıb.

**Əli RZAYEV**

## Döyüş atışlı taktiki xüsusi təlimlərə başlanılıb

*Əlahiddə Ümumqoşun Ordunun Hava Hücumundan Müdafiə hissə və bölmələrində döyüş atışlı taktiki xüsusi təlimlərə start verilib.*

Təlimlərə həyəcan siqnalının verilməsi, şərti hava düşməninin ilk zərbələrinin dəf edilməsi, idarəetmə və komanda məntəqələrində döyüş işinin aparılması ilə başlanılıb.

Təlimin döyüş atışlı mərhələsində düşmənin hava və yerüstü hədəfləri hava hücumundan müdafiə silahları ilə məhv edilib. Təlimlərə hava düşmənini təqlid edən Əlahiddə Ümumqoşun Ordunun aviasiyası da cəlb edilib.

**Nəriman NƏCƏFOV**

## Növbəti seminar-müşavirə keçirilib

***Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində sərnişindaşıma xidməti ilə məşğul olan sürücülər üçün növbəti seminar-müşavirə keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin şöbə müdirləri Zaur Əliyev və Elxan Novruzov, Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin əməkdaşı İman Adıgözəlov çıxış ediblər. Bildirilib ki, muxtar respublikada digər sahələrlə yanaşı, avtomobil nəqliyyatı sahəsində də əsaslı islahatlar aparılıb və müsbət nəticələr əldə edilib. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, bu sahədə həyata keçirilən müxtəlif tədbirlər avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşımaların müasir tələblərə uyğun yerinə yetirilməsinə əlverişli şərait yaradıb.

Qeyd edilib ki, bu ilin ötən dövrü ərzində şəhərlərarası və rayonlararası marşrut avtobuslarının qrafiki bir daha nəzərdən keçirilib, qrafiklər daha da təkmilləşdirilib. Xətlərə çıxan avtobus və taksilərin texniki baxışları təşkil olunub.

Vurğulanıb ki, bu gün muxtar respublikamıza gələn turistlərə göstərilən nəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi, qonaqlarla ünsiyyətin düzgün qurulması əsas məsələlərdəndir. Bu mənada, sürücülərin iştirakı ilə maarifləndirici xarakterli seminar-müşavirələrin keçirilməsi, muzeylərə ziyarətlərin təşkili, onların muxtar respublikanı təbliğ edəcək məlumat nəşrləri ilə təmin edilməsi xüsusi önəm daşıyır.

**✍ Nail ƏSGƏROV**

## Əkin yerinin yandırılması inzibati məsuliyyət yaradır

Kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün bütün mülkiyyət növləri üzrə torpaq fondundan səmərəli və məqsədyönlü istifadə edilməsi vacib şərtdir. Muxtar respublikamızda kənd təsərrüfatına yararlı torpaqların istifadəsinə və mühafizəsinə, torpaq qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır, torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizmi mütəmadi olaraq təkmilləşdirilir.

Hazırda muxtar respublikada taxıl biçini mövsümüdür. Bəzi təsərrüfatçılar məhsul yığımından sonra əkin sahəsinin yandırılmasının torpaq üçün faydalı olduğunu düşünərək bu cür yanlış və qanunazidd addımlar atırlar. Torpaq mülkiyyətçiləri və icarəçilərinin diqqətinə çatdırılır ki, biçin başa çatdıqdan sonra əkin yerlərinin yandırılması bitki qalıqlarını, torpağın humus qatını, faydalı torpaq mikroflorası və mikrofaunasını məhv edir. Torpaqlar münbitliyini itirir, məhsuldarlıq aşağı düşür. Bu əməli törədənlər isə qanunvericilikdə müəyyən edilmiş qaydada inzibati məsuliyyət daşıyırlar. Belə ki, əkinəyararlı torpaq sahələrinin münbitliyinin qorunması, ekoloji mühitə vurulan zərərin qarşısının alınması və kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsi üçün 2017-ci il dekabrın 15-də torpaq qanunvericiliyinə bəzi dəyişikliklər edilib. "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsinə edilmiş dəyişikliyə əsasən əkin yerinin yandırılmasına qadağan olunur. İnzibati Xətalar Məcəlləsinə yeni əlavə edilmiş 244-1-ci maddədə isə əkin yerlərinin yandırılmasına görə fiziki şəxslərin 400 manatdan 600 manata, vəzifəli şəxslərin 1500 manatdan 2000 manata, hüquqi şəxslərin isə 5000 manatdan 6000 manatadək məbləğdə cərimə edilməsi nəzərdə tutulur.

Əkin yerinin yandırılmasına görə yol verilmiş inzibati xətalar haqqında işlərə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi və Kənd Təsərrüfatı Nazirliyi tərəfindən baxılır.

Torpaq mülkiyyətçilərinə və icarəçilərə bol və keyfiyyətli məhsul istehsalı üçün torpaqdan təyinatı üzrə, səmərəli və müəyyən olunmuş rejimə uyğun istifadə etmək, təsərrüfat fəaliyyətlərində torpağın münbit qatının korlanmasına yol verməmək tövsiyə olunur.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Atçılıq və İstirahət Mərkəzində qonaqlara nümunəvi xidmət göstərilir





***Muxtar respublikamızda insanların yaşayış şəraitinin yaxşılaşdırılması və asudə vaxtlarının səmərəli təşkili daim diqqət mərkəzindədir. Məhz bunun nəticəsidir ki, hər il yeni turizm və istirahət obyektləri sakinlərin istifadəsinə verilir. Təbii ki, isti yay günlərində hər birimiz ailəvi şəkildə istirahət etmək, bu məqsədlə xidmət çeşidliyi və münasib qiymətləri ilə seçilən məkanlara üz tutmaq istəyirik. Görülən işlərin nəticəsidir ki, doğma diyarımızda belə üstünlükləri ilə seçilən bir çox istirahət guşələri yaradılıb. Onlardan biri də Babək rayonunun Badaşqan kəndində yerləşən Naxçıvan Atçılıq və İstirahət Mərkəzidir.***

Mərkəz özünəməxsus görünüşü ilə ilk baxışdan diqqəti cəlb edir. Mərkəzin ərazisi 3 hektara yaxındır və burada 20 nəfər işlə təmin olunub. Rəngarəng yaşıllıq guşələri, oturacaqlar, kupelərin müasir arxitektura ilə salınması istirahət üçün bura üz tutanlarda gözəl əhval-ruhiyyə yaradır.

Göstərilən xidmətlərə gəldikdə isə bu məkanda istirahət edənlərə nümunəvi ictimai iaşə xidməti göstərilir. Belə ki, müştərilər milli mətbəximizin ləziz təamlarından dada, soyuq və isti içkilərdən istifadə edə bilərlər.

Həmçinin istirahət mərkəzinə gələn qonaqlar üçün tirdə atış, heyvanlar aləminə səyahət, fayton da gəzmək imkanları da yaradılıb. Burada uşaqların əyləncəsi üçün də hərtərəfli şərait mövcuddur. "Qarabağ", "Ərəb", "Midilli", "Poni" və başqa at növlərinin olduğu atçılıq klubunda isə qonaqlar at minməzdən öncə təlimat alırlar. Mütəxəssislərin fikrincə, bir çox xəstəliklərin müalicəsində at minmək faydalıdır. Ona görə də, buraya gələnlər bu imkandan istifadə edirlər.

Qeyd edək ki, mövsümlə əlaqədar olaraq mərkəzə gələn müştərilərin sayında hər keçən gün artım müşahidə olunur. Xüsusən axşam saatlarında Naxçıvan şəhərindən, rayonlardan gələnlər bu məkanda ailəvi şəkildə istirahət etmək imkanı əldə edirlər.

**Muxtar RZAZADƏ**

### 2018-ci ilin iyul ayında rayon (şəhər) məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Rayon (şəhər) məşğulluq mərkəzləri | Yarmarkanın keçirildiyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Mədəniyyət şöbəsinin binası | 06.07.2018 | $11^{00}$ |
| 2. | Kəngərli rayonu | Mədəniyyət şöbəsinin binası | 09.07.2018 | $11^{00}$ |
| 3. | Şahbuz rayonu | Şahbuz Şəhər "Araz" kinoteatrının binası | 10.07.2018 | $11^{00}$ |
| 4. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 11.07.2018 | $11^{00}$ |
| 5. | Ordubad rayonu | Mədəniyyət şöbəsinin binası | 12.07.2018 | $11^{00}$ |
| 6. | Babək rayonu | Mədəniyyət şöbəsinin binası | 13.07.2018 | $11^{00}$ |
| 7. | Şərur rayonu | Şərur Şəhər Mədəniyyət Sarayı | 16.07.2018 | $11^{00}$ |
| 8. | Naxçıvan şəhəri | Naxçıvan Regional Peşə Tədris Mərkəzi | 18.07.2018 | $11^{00}$ |

***Yaşıllığı az olan, dəniz səviyyəsindən yüksək ərazilərdə, Günəş şüasının çox düşdüyü isti ölkələrdə allergiya, keratokonus, quru göz sindromu kimi xəstəliklərə daha çox rast gəlinir. Bəs dünyanın enerji qaynağı olan Günəşin sağlamlığımız üçün faydaları ilə yanaşı, zərərli olduğunu da bilirikmi? Sadaladığımız bu qədər təhlükələrdən necə qorunmalıyıq? Yay fəslində ən çox rast gəlinən problemlərdən biri – günvurma zamanı ilk tibbi yardım necə aparılmalıdır?***

*Həkim məsləhəti*

## Günvurmadan necə qorunmalı?



Bu barədə Naxçıvan Muxtar Respublika Xəstəxanasının Təcili təxirəsalınmaz planlı yardım şöbəsinin müdiri Pəri Əliyeva ilə həmsöhbət olduq. Bildirdi ki, Günəş şüalarının insan orqanizminə çox faydalı olması ilə yanaşı, aldığımız ultrabənövşəyi şüaların zərərli təsirini də yaddan çıxarmamalıyıq. Bundan qorunmanın ən yaxşı yolu Günəş şüaları altında uzun müddət qalmamaqdır. Günəş şüalarının ən təsirli vaxtı saat $10^{00}$-$16^{00}$ arasıdır. Ona görə də günün bu saatlarında qapalı məkanlarda olmaq məsləhət görülür. Açıq havada işləyənlər həmin saatlarda kölgəyə çəkilməli və ya əyinlərinə açıq rəngli geyimlər geyinməlidirlər.

Pəri həkimin sözlərinə görə, çox zaman valideynlər bu şüaların orqanizm üçün xeyirli olduğunu düşünərək uşaqları saatlarla Günəş altında oynamağa buraxır, özləri isə dəniz kənarında, hovuz başında Günəş vannası qəbul edirlər. Düzdür, Günəş şüası xeyirlidir, amma düzgün zamanda qəbul edildiyində. Günəş şüaları altında çox qalan zaman günvurma baş verə bilər ki, bu da bəzən ölümlə nəticələnir. Günəş, adətən, istiliyin 32 dərəcədən yuxarı, nisbi rütubətin 60 faizdən çox olduğu saatlarda təhlükəli sayılır. Günvurma zamanı bədənin hərarəti 41 dərəcəyə qalxır. Ürək, beyin, böyrək, qaraciyər kimi bir çox həyati əhəmiyyət kəsb edən orqanların funksiyaları pozulur. Günvurma ani olaraq ortaya çıxan başağrısına, başgicəllənməyə, nitq pozuntusuna, hallüsunasiyaya, huşunu itirməyə, ürəkgetməyə və koma səbəb ola bilər.

Ağır günvurma zamanı termometr 41 dərəcəni göstərsə də, daxildə istiliyin dərəcəsi 44-ə qədər qalxa bilir. Bu halda dəri quru və qızarmış, nəbz sürətli, tənəffüs isə zəif olur. Bu zaman xəstə komaya düşə, onda böyrək çatışmazlığı, damarda qan laxtalanması daha sürətlə yarana, Günəş şüası dəridə qalıcı yanıqlara da səbəb ola bilər.

Günəş şüaları altında qoruyucu geyimsiz və maskasız qalarkən dəridə qızartı, qaşınma və bəzən sulu yaralar əmələ gəlir. Bu yaralar gün yanığı hesab edilir.

Həkimin sözlərinə görə, günvurma zamanı, ilk olaraq, xəstənin paltarını çıxarmaq, içməyə soyuq ayran, mineral su vermək, başa, qoltuq altına, boyuna, qasıq nahiyəsinə buz qovluğu qoymaq və soyuq su ilə isladılmış mələfə ilə bükmək bəs edər. Xəstənin huşu itibsə, naşatır spirti iylətmək lazımdır. Tənəffüs və ürək dayandıqda ürəyin qapalı masajı və süni tənəffüs yerinə yetirilir. Belə xəstələr bir neçə gün nəzarətdə olmalıdırlar. Ağır hallarda xəstələr təcili yardımla reanimasiya şöbələrinə aparılmalıdırlar.

İsti və günvurmadan qorunmaq üçün bəzi iş normalarına əməl etmək lazımdır. İsti günlərdə həzmi asan olan yeməklər yemək, çox maye qəbul etmək, meyvə-tərəvəzlə qidalanmaq, siqaretdən uzaq durmaq və tez-tez duş qəbul etmək lazımdır. Maye qəbulu ilə bağlı rejim çox vacibdir. Tünd olmayan çay, kvas qəbulu su-duz mübadiləsinin tənzimlənməsində və orqanizmdə mayenin saxlanmasında mühüm rol oynayır.

Pəri Əliyeva onu da bildirdi ki, isti hava şəraitində işləyərkən iş rejimi düzgün qurulmalıdır. İstidə alkoqol qəbulu hərarətin tənzimlənməsini kəskin pozur və istivurmanın əmələ gəlməsini tezləşdirir.

Qeyd edək ki, insan orqanizmi hər bir şəraitə, eləcə də istiyə 1 həftə müddətində alışır. İlk gün hiss edilən narahatlıq sonuncu günə qədər azalıb yox olur. Buna görə də çalışın ki, bədəninizin öyrənə biləcəyi 7 gündə özünüzü günvurmadan qoruyasınız.

**✍ Ramiyyə ƏKBƏROVA**

### Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu 2018-2019-cu tədris ilində İbtidai sinif müəllimliyi ixtisası üzrə əlavə ali təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbulu elan edir*

Əlavə ali təhsil ödənişli formada müəssisə, təşkilat, idarə və ayrı-ayrı vətəndaşlarla Naxçıvan Müəllimlər İnstitutu arasında bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. Əlavə ali təhsil göstərilən ixtisas üzrə bakalavr (və ona bərabər tutulan) səviyyəsi üçün mövcud olan baza təhsil proqramındakı ümumi və ixtisas fənləri bölümlərini əhatə etməklə, tələbənin əvvəlcə aldığı baza təhsil proqramı ilə yeni ixtisasın baza təhsili proqramı arasındakı fərq nəzərə alınmaqla xüsusi hazırlanmış təhsil proqramı əsasında aparılır. Şəxsin əlavə ali təhsil üzrə seçdiyi ixtisas onun tutduğu vəzifənin profilinə uyğun olmalıdır.

Əlavə ali təhsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *rektorun adına ərizə;*
- *ali təhsil haqqında sənədin (diplomun) və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;*
- *3x4 santimetr ölçüdə 6 ədəd fotoşəkil;*
- *sağlamlıq haqqında arayış;*
- *əmək kitabçasından çıxarış;*
- *şəxsiyyət vəsiqəsi və diplom şəxsən təqdim olunur.*

Sənədlər 2018-ci il iyulun 6-dan avqustun 6-dək hər gün (istirahət günlərindən başqa) saat $10^{00}$-dan $16^{00}$-dək Naxçıvan Müəllimlər İnstitutunda qəbul edilir.

Əlavə ali təhsil almaq üçün instituta sənəd vermiş şəxslərlə müəyyən edilmiş qaydada müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müqavilə yolu ilə müvafiq əlavə ali təhsil ixtisası üzrə tələbələr sırasına qəbul edilirlər. Təhsil haqqı müqavilə əsasında ödənilir.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, Naxçıvan Müəllimlər İnstitutu***
***Əlaqə telefonu: 545-79-23***
***Rektorluq***

### *İtmişdir*

Şirinova Səltənət Qəzənfər qızının adına olan 6654 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Darçınov Nurlan Məhərrəm oğlunun adına verilmiş MN-0050782 seriya nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 478